**Mirvari İsmayılova**
**ADPU,**
**filologiya üzrə elmlər doktoru, professoru**
**mirvari.ismayilova@mail.ru**

# Ünsiyyətin qeyri-verbal ifadə vasitələri

**Açar sözlər:** kommunikasiya, qeyri-verbal, jest, mimika, ritmik, emosional, işarəedici, təsviri, simvolik .

**Ключевые слова:** коммуникация, невербальный, жест, мимика, ритмический, эмоциональный, указательный, описательный, символичный.

**Key words:** communication, non-verbal, gestures, facial expressions, rhythmical, beacon signal, descriptive, symbolical.

Nitq yalnız informasiyanın ötürülməsinə deyil, bu informasiyanın kommunikativ prosesdə iştirak edənlərə təsirini müəyyən cəhətləri ilə göstərilməsinə də xidmət edir.

Söz və dilin başqa vasitələri ilə ifadə olunan informasiya **verbal** informasiya adlanır. Dil vasitələri ilə ifadə olunmayan, danışan və onun danışığın mövzusuna münasibətini göstərən ekstralinqvistik informasiya isə qeyri-verbal informasiya adlanır və bu zaman qeyri-verbal və ya verbal ifadə vasitələri təzahür edir, ötürülür.

Insanlar bir-birilə ünsiyyətdə olarkən öz fikirlərini, arzu-istəklərini, əhval-ruhiyyələrini bildirmək üçün **verbal (sözlü)** nitqlə yanaşı, **qeyri-verbal (mimika, jest və s.)** vasitələrdən istifadə edirlər. Tədqiqatçılar qeyd edir ki, ünsiyyət prosesində qeyri-verbal ifadə vasitələri verbal ifadə vasitələrini üstələyir. Ən maraqlısı isə odur ki, jestlər səsli nitqdən əvvəl yaranmış olsa da, onlar yalnız XX əsrin 60-cı illərindən tədqiqata cəlb edilərək öyrənilməyə başlanmışdır. Bu sahədə Djulius Fast, Alana Piza, Robert Uatsaydın əsərləri dünyada tanınıb. Lakin jestlərin dili problemi hələ Ç. Darvinin "Выражение эмоции животными и человеком " (1872) əsərində öz əksini tapmışdır.

Alimlər milyona yaxın qeyri-verbal siqnalları qeydə almışlar. Mütəxəssislərin hesablamalarına görə insanlar yalnız əl hərəkəti ilə 700 min siqnal ötürə bilir.

Qeyri-verbal ifadə vasitələri mənanın və emosiyanın ötürülməsini zənginləşdirir, ünsiyyət iştirakçıları arasında qarşılıqlı münasibətlərin keyfiyyətinə və dəyişməsinə təsir göstərir, bu münasibətləri formalaşdırır.

Qeyri-verbal ifadə vasitələrinin mənası onlardan istifadə edənlərdən, kontekstdən, mədəniyyətdən və başqa amillərdən asılı olur. Kommunikasiya prosesində ötürülən informasiyanın düzgün qavranılması bütün vasitələrin nəzərə alınmasını tələb edir.

Mimika və jestlər danışan şəxsə öz hisslərini tam şəkildə ifadə etməyə kömək edir, onlar vasitəsilə müəyyən etmək olar ki, dialoq iştirakçıları nə dərəcədə özünə əmindir, bir-birinə münasibəti necədir.

**Mimika**. Danışanın, şəxsin hisslərinin başlıca göstəricisi onun üzünün ifadəsi, mimikasıdır. Alimlər göstərir ki, insan mimika ilə hisslərini ifadə etmək bacarığı ilə doğulur.

Mimikalar bizə həmsöhbətimizi, opponenti daha düzgün başa düşməyə, onun hansı hissləri keçirdiyini müəyyən etməyə kömək edir.

Yuxarı qalxmış qaşlar, geniş açılmış gözlər, dodaqların kənarlarının aşağı enməsi, yarıaçılmış ağız-**təəccübü**;

aşağı endirilmiş və çatılmış qaşlar, alındakı qırışların bükülməsi, qıyılmış gözlər, qapanmış dodaqlar, sıxılmış dişlər-**qəzəbi**;

endirilmiş qaşlar, sönmüş gözlər, dodaqların uclarının yüngülcə enməsi-**qüssəni**;

sakit gözlər, dodaqların kənarlarının qalxması-**xoşbəxtliyi** bildirir.

Qeyri-verbal ifadə vasitələrinin etalon tipləri mövcuddur: Məsələn, **təəccübübildirən** etalon formalarının 4 tipi qeyd edilir:

1)gözlərin geniş açılması (bərəlməsi); 2)ağzın açılması; 3)qaşların yuxarı dartılması; 4)alnın qırışdırılması.

**Qorxu üçün** etalon ifadələrə aiddir:

1)çığırtı; 2)ağarma; 3)qaçma və ya quruyub qalma; 4)səsin titrəməsi; 5)qaşların yuxarı dartılması; 6)bədənin titrəməsi; 7)sifətin, ağzın əyilməsi.

Tərəf müqabili ilə söhbət edən hər kəs həmsöhbətinin mimikasını "anlamağı", "oxumağı" bacarmalıdır. Eyni zamanda bilməlidir ki, özü mimikalarını idarə etməyi nə qədər bacarır və onlar nə qədər ifadəlidir.

Bu baxımdan natiqlik sənəti ilə bağlı olan hər kəs öz sifətini öyrənməyə çalışmalı, qaşları, dodaqları, alın hərəkətlərini izləməlidir. Əgər siz tez-tez qaşlarınızı çatır, alnınızı qırışdırır, dodaqları sıxırsınızsa, alnınızdakı qırışları, qaş-qabaqlı baxışları açmağa çalışın. Üzdəki mimikaların ifadəli olması üçün güzgü qarşısında bəzən məşq də etmək lazım gəlir. Bunun üçün müxtəlif emosionallıqda olan (qüssəli, şən, gülməli, faciəli, xeyirxah, həqarətli) ifadələri tələffüz etmək lazımdır. Bu zaman mimikanın emosiyaya uyğun olub-olmadığı müəyyənləşdirilir.

**Jestlər**. Ünsiyyət zamanı həmsöhbətin jestləri də maraq doğurur. Jestlər informasiyanın ən qədim mübadilə forması olmuşdur.

İnsanlar söhbət edərkən çox müxtəlif jestlərlə öz nitqlərini müşayiət edirlər.

Dil uşaqlıqdan öyrənilir, jestlər isə təbii yolla qavranılır və heç kim əvvəlcədən jestlərin mənalarını izah etmir, şifrini açmır. Bununla belə danışanlar jestləri başa düşür və onlardan istifadə edir. Çünki jestlərdən elə-belə istifadə olunmur, onlar sözü müşayiət edir, bir növ ona yardım edir, bəzən isə onu dəqiqləşdirir, tamamlayır.

Təbii ki, jestsiz söylənmiş "Uşaqlar bax burda oturub" ifadəsi aydın olmaz. Harda oturub: stol arxasında, divanda, televizor qarşısında, yoxsa daha harda? Burada işarə əvəzliyi dəqiqləşmə tələb edir. Lakin danışan bu sözləri jestlər ilə müşayiət edirsə (barmaqları ilə boynunun arxasına vurursa), bu zaman deyilənlər məna kəsb edir, yəni uşaqlar bütünlüklə onun hesabındadır, o son dərəcə yüklənib.

Ünsiyyət prosesində nitqlə jestin üst-üstə düşməsi mümkündür. Bu halda fikir həm qeyri-verbal, həm də verbal (sözlə) ifadə vasitəsi ilə reallaşır. Adresant həm "yox" deyir, həm də əlini yelləyir. Bəzən nitq prosesində jestlə verbal ifadənin mənaca fərqlənməsi yalanı göstərir.

Müxtəlif mədəniyyət və dil daşıyıcılarının emosional vəziyyətləri gərginləşdikcə jestlərdən istifadə artır.

Demosfen yaxşı natiq olmaq üçün nə lazımdır sualına, belə cavab verir: "Jestlər, jestlər və jestlər".

Təsadüfi deyil ki, hələ antik dövr ritorikalarında jestlərə aid xüsusi bölmələr ayrılırdı. Natiqlik sənətinin nəzəriyyəçiləri də jestlərə xüsusi əhəmiyyət verirdilər. A.F.Koni "Lektorlara məsləhətlər"ində yazırdı: "Jestlər nitqi canlandırır, amma onlardan ehtiyatla istifadə etmək lazımdır. İfadəli jest (yuxarıya qaldırılmış əl, sıxılmış yumruq, cəld və çevik hərəkət və s. ) ifadənin və ayrıca sözün (burada jest tonla birlikdə fəaliyyət göstərərək, nitqin təsirini ikiqat artırır) məna və məqsədinə uyğun olmalıdır". Tez-tez təkrar olunan, yeknəsəq, tələşlı, kəskin əl hərəkətləri isə xoşagəlməz, bezdirici, zəhlətökən və qıcıqlandırıcı olur.

Göründüyü kimi Koni jestin nitqdəki rolunu aydınlaşdırır: jest fikri dəqiqləşdirir, onu canlandırır, sözlərlə əlaqəli şəkildə olduqda onun emosional səslənməsini gücləndirir, nitqin daha yaxşı qavranılmasına təsir edir. A.F.Koni eyni zamanda qeyd edir ki, heç də bütün jestlər xoş təəssürat yaratmır. Əgər şəxs danışan zaman qulağını çəkir, burnunun ucunu silir, tez-tez qalstukunu düzəldir, düymələri ilə oynayır, bir sözlə hansısa sözün mənası ilə əlaqəsi olmayan **mexaniki jestləri** təkrarlayırsa, bu heç də xoş təəssürat yaratmır.

**Mexaniki jestlər** dinləyicinin diqqətini nitqin məzmunundan yayındırır, onun qavranılmasına mane olur. Mexaniki jestlər danışanın həyəcanının, özünə inamsızlığının nəticəsi kimi yaranır.

Təyinatından asılı olaraq jestlər **ritmik**, **emosional**, **işarəedici**, **təsviri** və **simvolik** növlərinə bölünür.

**Ritmik jestlər** nitqin ritmi ilə əlaqədardır. Televiziyada çıxış edənləri müşahidə edərkən bunu görmək olar (danışan öz fikirlərini ifadə edərkən nitq taktında nə qədər əl-qol atır).

Ritmik jestlər adətən intonasiyanın ötürdüklərini, məsələn, məntiqi vurğunun, nitqin yavaşıdılmasının, sürətlənməsinin, fasilənin yerini nəzərə çarpdırır, müşayiət edir və s. Məsələn, verilmiş cümlələri ritmik jestlərlə müşayiət edərək tələffüz edək:

1.Danışmaq su içmək qədər asandır.

2.O, heç kəsə məhəl qoymadan avtomat kimi yazırdı.

Birinci cümləni tələffüz edərkən biz əlimizi bir qədər yavaş, sağa doğru hərəkət etdiririk. Bu zaman sait səslər də nisbətən uzadılır.

İkinci halda sağ əlin barmaqları vertikal şəkildə əyilmiş, nəyisə sürətlə doğrayırmış kimi hərəkət etdirilir.

Bizim nitqimiz çox vaxt emosional olur. Həyəcan, sevinc, heyranlıq, nifrət, kədər, peşmançılıq, anlaşılmazlıq, çaşqınlıq, qarışıqlıq kimi hisslər yalnız sözlərdə, intonasiyada deyil, eyni zamanda jestlərdə də ifadə olunur.

**Emosional jestlər.** Hisslərin müxtəlif çalarlarını bildirən jestlər **emosional jestlər** adlanır. Bu jestlərin bir çoxu sabit ifadələrlə əks olunur və hamı tərəfindən başa düşüləndir. Məsələn: döşünə döymək, yumruğunu stola vurmaq, başına vurmaq, arxasını çevirmək, qapını göstərmək, çiyinlərini çəkmək, əllərini yelləmək, əlini alnına vurmaq.

**İşarəedici jestlər.** "O pəncərəni ört", "O gülü yox, bunu dər", "Bu daşı yox,onu at" cümlələrində deyilənləri jestlərin köməyi olmadan yerinə yetirmək olmaz. Belə hallarda işarəedici jestlərdən istifadə olunur. İşarəedici jestlərlə eynicinsli əşyalardan birinə işarə edilərək onun yeri göstərilir: yanında, aşağıda, ortada, bir qədər aralı, orada, yaxud sıra ardıcıllığı qaydası ilə, ardıcıllıqla, növbə ilə, aşırı.

İşarəni gözlə, başını yellətməklə, barmaqla (şəhadət, baş), ayaqla, bədən hərəkəti ilə etmək olar. Bəzi işarəedici jestlər şərti xarakter daşıyır. Məsələn, danışarkən əlini sinənin sol tərəfinə-ürəyin üstünə qoyaraq: "Onda burada (jest: sağ əl ilə ürəyə işarə edilir) heç nə yoxdur" , -o deməkdir ki, söhbət zalım, hissiz adamdan gedir.

Bəzən jestlərin mənası müəyyən situasiya ilə bağlı olur. Təsəvvür edək ki,

I hal-mühazirə gedir. Dinləyicilərdən biri digərinin baxışlarını tutaraq barmaqları ilə qolda saat olan yeri göstərir. O dəqiqə onun saat neçə olduğunu bilmək istədiyi başa düşülür.

II hal- assistent, köməkçi mühazirəçiyə eyni işarəni edir. Lakin bu işarə (jest) başqa mənanı ifadə edir: "Vaxt qurtarır. Mühazirəni yekunlaşdırmaq lazımdır".

III- hal-nəhayət, bu jest "Tələs! Getmək lazımdır " anlamını bildirir.

Saata işarə etmək jesti nitq prosesində o qədər möhkəmlənib ki, hətta qolda saat olmadıqda belə barmaqlar ilə biləkdə saat olan yerə işarə etdikdə belə vaxtı öyrənmək istəyi başa düşülür. Ümumiyyətlə, işarəedici jestdən konkret əşya, əyani vasitə olmadan istifadə etmək çaşqınlıq, anlaşılmazlıq yarada bilər.

**Təsviri jest.** Nitq prosesində təsviri jestlərdən istifadənin səbəbi müxtəlif ola bilər:

1) tam təsəvvür yaratmaq üçün sözlə tam məlumat vermə kifayət etmir;

2)danışan müəyyən yüksək emosional hisslər keçirdiyindən özünü ələ ala bilmir (məsələn, əsəbilik keçirir, dediklərinin bütünlüklə adresatın başa düşdüyünə əmin deyil);

3)dinləyicidə daha güclü təəssürat oyatmaq üçün əlavə əyani təsir göstərmək istəyir.

Lakin təsviri jestlərdən sui-istifadə etmək, onlara aludəçilik olmaz, bu jestlər dildə sözləri əvəz edə bilməz.

**Simvolik jestlər.** Biz teatrda, konsertdə, televiziya vasitəsilə artistlərin, müğənnilərin, aktyorların çıxışlarını müşahidə edirik. Xatırlayaq, tamaşa bitdikdən sonra tamaşaçılarla vidalaşarkən onlar kütlə qarşısında ən çox başəymə hərəkəti, jesti edirlər. Tamaşıçılar tərəfindən isti və səmimi qarşılandıqları, bol alqışlar üçün ən çox təkrar olunan minnətdarlıq jesti **baş əymədir**. Yaxud səhnənin ön hissəsində dayanaraq artistlər əllərini yana geniş açaraq, sanki zalda əyləşənləri bağırlarına basır, qucaqlayırlar. Daha bir jestdən də istifadə olunur: əllərini sinəyə basaraq aşağı əyilir, təzim edirlər. Bu jest aktyorun öz tamaşaçılarına ürəkdən gələn səmimi münasibəti- minnətdarlıq hissidir və s.

Simvolik jestlərlə bağlı daha başqa bir mənzərəni xatırlayaraq. Münsiflər heyətində əyləşmiş məşhurları təqdim edərkən onlar: 1) ayağa

qalxır, üzünü tamaşaçılara çevirir, başını azca əyir; 2) başqa biri hər iki əlini yuxarı qaldırır; 3) ovuclarını birləşdirərək sıxır, əlini yelləyir və s.

Böyük kütlə qarşısında çıxış edən natiqlər; dövlət xadimləri və deputatların seçkilər zamanı ən çox təkrarladığı jestlər iki əli sıxaraq başlarından yuxarı qaldırmaq "sizi salamlayıram", "sizinlə həmrəyəm", "qələbə bizimdir" deməkdir.

Bu jestlər şərti xarakter daşıyır və simvolik adlanır. Eləcə də bir-birini uzaqdan salamlayarkən görən şəxslər yüngülcə başını tərpədir, yaxud əlini yarı qaldıraraq yelləyir. Bu jestlər uzaqdan-uzağa salamlaşmağa işarə edən jestlərdir.

**Jestlərin milli xarakteri**

Əgər təsviri jestlər konkret xarici əlamətlərlə əlaqədardırsa, jest-simvollar abstraksiya ilə əlaqədar olur. Onların məzmunu bəzən müəyyən bir kollektivə, bəzən hər hansı xalqa aid olur. Bu jestlərdən salamlaşma, xudahafizləşmə, təsdiq, inkar, susmağa işarə, xəyalən dadlı bir şeyi xatırlayaraq ağzını marçıldatmaq, həzz almaq zamanı istifadə olunur.

Jestlərin milli xarakterini səciyyələndirən bəzi faktları nəzərdən keçirək. Məsələn, əlin ovcunun içini özündən əks istiqamətdə tutularaq iki aralanmış barmaq (şəhadət və orta) Avstraliya, Yeni Zellandiya, İngiltərə, Türkiyədə **qələbə** işarəsi deməkdir. Ovucun içərisini özünə tərəf tutaraq iki barmağı (şəhadət və orta) aralamaq jesti "Açıl başımdan" ifadəsinə bərabərdir. Avropalılar ovucun hansı tərəfə olmasından asılı olmayaraq bu jesti qələbə işarəsi kimi qəbul edirlər. Bu mənada əgər ingilis təhqiredici jest edərsə, avropalı onun hansı qələbəyə işarə etdiyinə təəccüblənər. Daha başqa bir fakt. Bir çox Avropa ölkələrində isə bu jest "2" rəqəminə bərabərdir. Bu zaman da qəribə mənzərə alınır. Xidmətdən narazı ingilis öz narazılığını, qəzəbini avropalı barmenə bildirmək üçün ovcunu özünə tərəf tutaraq iki barmağını göstərirsə (təhqiedici jest), barmen bu jestə cavab olaraq iki krujka pivə süzür. Yaxud koreyalılarda iki çarpazlaşmış barmaq (şəhadət və orta) **uğur** deməkdir.

Göründüyü kimi ayrı-ayrı mədəniyyətlərdə bəzi jestlərin mənası fərqlənir. Bununla belə, bütün mədəniyyətlər üçün səciyyəvi üç tip jest formasını ayırmaq olar:

1)kommunikativ (salamlaşma, sağollaşma, diqqəti cəlb etmə, qadağan, inkar, sual və s.);

2)münasibət və qiymətləndirmə (bəyənmə, təqdir, narazılıq, inanma, inanmama, anlamama və s.);

3)nitq hökmündə yer alan təsviri jestlər.

Bütün müxtəlifliyi, fərqliliyi, variantlılığı fövqündə jestlərin ifadə olunmasında bir sabitlik özünü göstərir. Lakin bəzən jestlər müəyyən qədər dəyişərək öz milli xarakterini itirir. Bəzən fikrin ifadə olunmasında bir yox, bir neçə jestdən istifadə olunur. Məsələn; "Bunun mənə dəxli yoxdur" cümləsində olduğu kimi. **Mənə** sözünün işarəedici jesti (əl sinəyə tərəf hərəkət edir); **bunun** sözü də işarəedici jestlə (əlin içərisi yuxarı doğru özündən aralanaraq); **dəxli yoxdur** ifadəsi əlin sağa-sola tərpənməsi simvolik jestilə müşayiət olunur.

Jestlər də, söz kimi, çox ekspressiv ola bilir, nitqə kobud, familyar (təklifsiz) xarakter verə bilər. Məsələn, baş barmağın (digərlərinin bir yumruq kimi içəri sıxılaraq) yuxarı qaldırılması nəyə isə "əla" qiymət verilməsi; şahadət barmaqla qulağın dibini göstərmək qeyri-mümkün olan şey - "qulağının dibini görərsən"; barmaqların üst tərəfi ilə boğaza sağdan çırtma vurmaq "nəsə içməyə"; şəhadət barmağının ucunun dodaqların üstünə qoyulması susmağa işarə; barmağı gicgahda burma "başı xarab olub", "ağlın itirib"; şəhadət və baş barmağı birləşdirərək boğazı çəkmək "mən ölüm", " lazım deyil", "yalvarıram" deməkdir.

Beləliklə, jestlərin hər biri natiqin nitqində fikir və hisslərin inkişaf xəttini izləməli, təsdiq etməli, göstərməlidir, onun yaradıcı təşəbbüsünün fiziki ifadəsi olmalıdır.

Jestlər, mimika, sifətin və gözlərin ifadəsi, sifətin rənginin, gözlərin baxış istiqamətinin dəyişməsi, göz yaşı, yeriş, duruş və digər hərəkətlər (məsələn, başı bulamaq, əli yelləmək, gözləri yummaq, gözləri qıymaq, göz vurmaq, ağzı büzmək və s.) formalaşmış qeyri-verbal ifadə vasitələri kimi mövcüddur. Belə hərəkətlər arasında fərdiləşənlər də az deyildir. Məsələn, əsəbilik bir şəxsdə gözlərin tez-tez qırpılmasında, digərində dodaqların səyriməsində, başqa birisində əllərin əsməsində, daha başqasında çiynin çəkilməsində və s. şəkildə özünü büruzə verir.

Yersiz, mənasız jest nitqi rövnəqləndirmir, tamamlamır, o yalnız gülüş doğura bilər, söylənən ideyanı korlaya bilər. Buna görə hələ qədim dövrlərdən natiqlik məharətinə aid ilk dərslərdə jestlərdən necə istifadə olunmasına aid məsləhətlər verilirdi.

Ədəb qaydaları ağız-burnu əyməyi, qulaqları sığallamağı, dartmağı, sinəni və qarnı irəli verməyi, kürəyi əyməyi, çiyinləri çəkməyi, əzilib-büzülməyi qadağan edir.

Nəzərə almaq lazımdır ki, jestlər həm də danışanın xarakteri ilə şərtlənir. Bəzi insanlar təbiətən mütəhərrik, emosional olur. Belə təbiətdə olan adamlar, əlbəttə ki, jestlərsiz keçinə bilməz. Öz hisslərini gizlədən,

bildirməyən soyuqqanlı, sakit, təmkinli adamlara jestlərdən istifadə etmək xas deyil.

Yaxşı jestlər o jestlər hesab olunur ki, onlar gözə çarpmır, gözə girmir. Orqanizm təbii olaraq sözlə birləşərək onun (sözün) dinləyiciyə təsirini gücləndirir.

Dövlət qulluqçuları müəllimlər, hüquqşünaslar, həkim, diler, satıcılar, bir sözlə, öz fəaliyyətlərində daima insanlarla ünsiyyətdə olanlar bilməlidir ki, jest və mimika insanın hiss-həyəcanı, xarakteri, düşüncələri haqqında çox şey deyə bilər. Ona görə təcrübəli insanlar, psixoloqlar, hüquqşünaslar ünsiyyətdə olduqları insanların davranışları, jest və mimikalarını diqqətlə izləyir, çox zaman həmsöhbətin gözlərinin içinə baxmağa çalışırlar. Adətən günahı olan, nəyisə gizlətməyə çalışan adamlar gözlərini qaçırır, yerə baxırlar. Ona görə vaxtilə qiymətli daş-qaşların ticarəti ilə məşğul olan qədim çinlilər diqqətlə öz müştərilərinin gözlərinin içinə baxırdılar. Onlar bilirdilər ki, sevinc, heyranlıq içərsində olan şəxsin gözlərinin bəbəkləri böyüyür, əsəbi narazı, qəzəbli olarkən isə gözlər kifayət qədər kiçilir.

Yaxud öz təbiətinə görə lider olanlar əl verib görüşərkən əllərini ovucu aşağı tutaraq; yumşaq, zəif, iradəsiz adamlar isə ovuclarını yuxarı tutaraq əl verirlər. Arxada sıxılaraq tutulmuş əllər özünəəminlik və üstünlüyü sübut edir. Bu jest mütəxəssislərin fikrincə, yüksək rütbəli hərbçilərə, polis işçilərinə, direktorlara xasdır. Bu vəziyyəti xüsusən onların nəzarətində olan sahədə, kazarmada, müəssisədə, təhsil yerlərində müşahidə etmək olur. Psixoloqlar çətin sınaq qarşısında, imtahanqabağı, hesabatdan əvvəl, diş həkiminin qəbulunda olarkən bu jesti etməyi (əlləri arxada sıxmağı) məsləhət görürlər. Elə o dəqiqə özünə inam yaranacaq, qorxu itəcək, müəyyən yüngüllük əldə olunacaq.

Əlləri belə qoymaq-aqressivliyə hazırlıq jestidir. Bu jest rinqə hazırlaşan boksçulara, səhnəyə çıxacaq aktyorlara xasdır. Bu poz ayaqların aralanmış halda qoyulması, əl barmaqlarının yumruq kimi sıxılması ilə müşahidə olunur.

İnsan əsəbiləşərək mənfi hisslər keçirərkən, instinktiv olaraq özünü arzuolunmaz situasiyadan qorumağa çalışır: əllərini sinəsində çarpazlayır. Bu jestlə onlar sanki özlərini xoşagəlməz hadisələrdən qoruyur, əllərini sipər edirlər. Bu vəziyyətdə barmaqlar yumruq kimi sıxılarsa, bu düşmənçilik işarəsidir.

**Gözlər və baxış.** Kreidlin hesab edir ki, emosiayanın ifadə olunmasında gözlər və baxış əhəmiyyətli rol oynayır. Gözlər ünsiyyətə çağırış, eyni zamanda ondan imtina etməyi ifadə edir(1, 51).

Yaponlar söhbət edərkən bir-birinin gözünün içinə baxmazlar. Bu mədəniyyətsizlik hesab olunur. Bizdə isə işgüzar söhbət, sövdələşmə zamanı yaxşı münasibət qurmaq, əminlik üçün bir-birinin gözlərinin içinə baxırlar. Psixoloqlar hesab edir ki, bu danışıq vaxtının 60-70% -ni təşkil etməlidir. Əgər həmsöhbət gözünü yayındırır, yaxud yerə baxırsa, bu qarşı tərəfdə ona inamsızlıq yaradır.

Burada məsələnin başqa tərəfi də var. Bizdə yad kişiyə və ya qadına, eləcə də həmsöhbətə gözünü zilləyərək baxmaq böyük ədəbsizlik sayılır. Adətən görüşərkən yüngülcə baxışdan sonra gözlər həmsöhbətdən çəkilir.

Kommunikativ prosesdə emosiyanın qeyri-verbal ifadəsinə xidmət edən **bədən hərəkətləri bədii ədəbiyyatda təsvir yolu ilə** verilir. Bu hərəkətlərin təsviri mətnin formalaşmasında xüsusi rol oynayır.

- Əlinin batqın, quyunun dibindən gələn səsi yenə qalxdı, onun yatıq sinəsi yenə qabardı, üzünün əzaları zol-zol durub tarıma çəkildi, qalın qaşları enli alnını sıxıb dərin bir qırışla kəsdi, gözləri körüyün yelliyinə tutulmuş kösövlər təki alışıb yanmağa, alovlanmağa başladı.
- Məhəmməd dayının üzündəki don açıldı, gözlərindəki təlaş çəkildi, bəbəkləri işıqlandı, dodaqlarına təbəssüm qondu.
- Sərinə qapıdan çıxdı, tələsik çıxdı. Gözlərini yerə dikməsi, çiyninin çəkişməsi, əllərini önündə çarpazlaması, addımladıqca çala-çökəyi görməyib büdrəməsi İldırımın gözlərindən yayınmadı.

Maşınsızlar isə çolum-cocuğunu evin dərin yerinə çəkir, əlacsızlığın ağırlığı altında balalarının qorxudan bərəlmiş gözlərinə baxmağa da utanırdılar.

İldırımın çiyinləri düşdü, sifəti uzandı.

Bədii əsərlərdən seçilmiş bu fraqmentlər təsviri səciyyəlidir və jest və mimikaları təsvir edir.

## ƏDƏBİYYAT:

1.Креидлин Г.Е. Невербальная семиотика. Язык тела и естественный язык. Москва, Новое литературное обозрение, 2002.
2.Культура речи и эффективность общения//Под. ред. Прудкина Л.К., Ширяева Е.Н. Москва, 1996.
3.Леонтьев. А. А. Психология общения. М.1994.
4.Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, N/BM, 2015.

**Мирвари Исмайылова**

**Невербальные средства коммуникации**

**Резюме**

В коммуникативном процессе для польного осознания передаваемой информации используются все средства ( вербальные и невербальные). В статье рассматриваются вопросы невербальных средств общения. Выясняется, что невербальные средства общения (мимика и жесты) позволяют говорящему полнее выразить свои чувства, показывают, насколько участники коммуникации владеют собой, как относятся друг к другу. В статье также определены эталонные типы жестов и мимики, рассмотрены национальные характеры жестов.

**MirvariIsmayilova**

**The means of non-verbal expression of communication**

**Summary**

In the communication process for fully appreciate the transmitted information is used by all means (verbal and non-verbal). In this article deals with the question of non-verbal communication means. It is cleared that non-verbal communication means (facial expressions and gestures) enables the speaker fully to express one's feeling, shows some participiant's communication how to communication with one-another. In this article it is also identified the type of facial expressions and gestures, and it is considered of the national characters of gestures.